# Yaşayış məntəqələrinin inkişafı insanların rahatlığına xidmət edir

***Yanvarın 3-dən 31-dək rayonun bütün inzibati ərazi nümayəndəliklərində ötən ildə görülmüş işlərin yekunlarına və qarşıda duran vəzifələrə dair ənənəvi hesabat iclasları keçirilmişdir.***

***Aşağıda son günlər keçirilən hesabat iclasları haqqında məlumatları dərc edirik.***

## Qəbələ şəhəri

Yanvarın 31-də Qəbələ şəhər inzibati ərazi nümayəndəliyində 2018-ci ildə görülən işlərə dair hesabat yığıncağı keçirilmişdir.

Yığıncaqda şəhər ictimaiyyətinin nümayəndələri, ərazidə fəaliyyət göstərən idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri iştirak etmişlər.

İclası giriş sözü ilə şəhər inzibati ərazi nümayəndəsi Dəmir Bağırov açaraq 2018-ci ildə ərazidə görülən işlər barədə hesabat məruzəsi ilə çıxış etmişdir.

Hesabat məruzəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə 2018-ci ildə Respublikamızda həyata keçirilən böyük quruculuq işləri barədə toplantı iştirakçılara geniş məlumat verilmişdir. Qeyd olunmuşdur ki, iqtisadiyyatın tarazlı inkişafını təmin edən uğurlu siyasət ölkəmizi regionun aparıcı dövlətlərindən birinə çevirmişdir.

Dəmir Bağırov bildirmişdir ki, Azərbaycanın bu günkü inkişafı, tərəqqisi ölkə başçısı cənab İlham Əliyevin uğurla həyata keçirdiyi sosial-iqtisadi siyasətin təntənəsidir. Dövlət başçısı tərəfindən regionlara göstərilən diqqət və qayğının nəticəsində bu gün rayonların, qəsəbə və kəndlərin siması dəyişir, hər yerdə böyük quruculuq işləri həyata keçirilir.





Məruzəçi tərəfindən Azərbaycanın bu günkü inkişafı və tərəqqisi fonunda Qəbələ rayonunun, o cümlədən şəhərimizin sürətli inkişaf dövrünü yaşadığı qeyd edilmişdir. Burada görülən işlərin, həyata keçirilən layihələrin sayəsində Qəbələnin dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrildiyi, şəhərimizin bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etdiyi vurğulanmışdır.

Şəhər əhalisinə göstərilən xidmətlərin yüksək səviyyədə təşkili üçün ərazi nümayəndəliyi tərəfindən bir sıra tədbirlər hazırlanaraq həyata keçirildiyi, elektrik enerjisinə, mavi yanacağa, telefon və internet xidmətinə, içməli suya və kommunal xidmətlərə olan tələbatın tam ödənildiyi bildirilmişdir. Ərazidə su-kanalizasiya sisteminin yenidən qurulması layihəsinin ikinci mərhələsi istiqamətində tikinti quraşdırma işlərinin davam etdirildiyi, şəhər əhalisinin və turistlərin istirahətinin təşkili üçün park və xiyabanlarda təmizlik, səliqə səhman işlərinin müntəzəm aparıldığı diqqətə çatdırılmışdır. Qeyd olunmuşdur ki, şəhərin prospekt və küçələri müasir memarlıq üslubunda yenidən qurulmuş, yollara asfalt örtüklər döşənmiş, piyadalar üçün səkilər salınmışdır.

Məruzə ətrafında şəhər 1 nömrəli məktəbin müəllimi Esmira Əsədova, 1 nömrəli körpələr evi- uşaq bağçasının tərbiyəçi müəllimi Aytən Məmmədova, rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev, təhsil şöbəsinin müdiri Arifə Bayramova, Qızıl Aypara Cəmiyyəti rayon təşkilatının sədri Sədaqət Bayramova və digərləri çıxış edərək 2018-ci ildə Qəbələ şəhərində görülən abadlıq və quruculuq işlərini yüksək qiymətləndirmişlər. Çıxış edənlər Qəbələnin sürətli inkişafına göstərdiyi böyük diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını ifadə etmişlər.

Yığıncaqda iştirak edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda ölkə başçısının dövlət qurumları və yerli icra strukturları qarşısında qoyduğu vəzifələr barədə ətraflı məlumat vermişdir.

RİH-nin rəsmisi ölkə başçısı tərəfindən Qəbələnin inkişafına göstərilən böyük diqqət və qayğı sayəsində şəhərin su-kanalizasiya şəbəkələri sisteminin, enerji təsərrüfatının yenidən qurulması, mərkəzi xəstəxana kompleksinin, Ləki-Qəbələ dəmir yolunun inşası istiqamətində tikinti işlərinin davam etdirildiyini bildirmişdir.

RİH başçısının birinci müavini göstərilən bu diqqət və qayğının bizdən daha yaxşı işləməyi tələb etdiyini, eyni zamanda məsuliyyətimizi daha da artırdığını söyləmiş və əmin olduğunu bildirmişdir ki, 2019-cu ildə Qəbələ şəhərində həyata keçirilən sosial-iqtisadi layihələr, abadlıq-quruculuq işləri daha da genişləndiriləcəkdir.

Hesabat yığıncağında müvafiq qərar layihəsi qəbul olunmuşdur.

## Vəndam qəsəbəsi

Yanvar 29-da Vəndam qəsəbə inzibati ərazi nümayəndəliyində 2018-ci ilin yekunları və



2019-cu ildə qarşıda duran vəzifələrə dair hesabat iclası keçirilib.

İclasda Vəndam qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə İlham Bağırov hesabat məruzəsi ilə çıxış edib.

Məruzədə bildirilib ki, Azərbaycanın bütün bölgələrində olduğu kimi, hesabat ilində Qəbələ rayonunda da sosial-iqtisadi sahədə böyük uğurlar qazanılıb.

Aparılan quruculuq işlərinin fonunda Vəndam qəsəbəsində də yenidənqurma, tikinti-abadlıq tədbirlərinin geniş vüsət aldığı və nəticədə yaşayış məntəqəsinin görkəminin əsaslı surətdə dəyişdiyi diqqətə çatdırılıb.

Hesabat məruzəsində rayonumuzda əhalinin rifahının yüksəlməsi istiqamətində ardıcıl iş aparıldığı, bunun üçün birinci növbədə adamların məşğulluğunun və özünüməşğulluğun tə-



min edilməsi ilə bağlı mühüm tədbirlərin həyata keçirildiyi xüsusi vurğulanıb. Məruzədə həmçinin qeyd edilib ki, Vəndam qəsəbəsində sakinləri narahat edən əksər sosial problemlər-işıq, su, təbii qaz təminatı həll olunub.

Məruzəçi Vəndam qəsəbə inzibati ərazisində sakinlərin rifahının yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması ilə bağlı tədbirlərin 2019-cu ildə də davam etdiriləcəyini vurğulayıb.

Qəsəbə sakinləri Teymur Qarayev, Asif Həşimov və başqaları iclasda çıxış edərək yaşayış məntəqəsinin inkişafına göstərilən dövlət qayğısına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Hesabat iclasında çıxış edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov Prezident İlham Əliyevin apardığı düzgün və məqsədyönlü siyasətin nəticəsində bu gün Azərbaycanın dünya miqyasında öz sözünü deyən lider ölkələrdən birinə çevrildiyini bildirib. Bölgələrdə aparılan - abadlıq quruculuq işlərinin sosial rifahın, tarazlı iqtisadi inkişafın, ən yaxşı göstəricisi olduğunu qeyd edən RİH başçısının birinci müavini qəsəbədə görülən yenidənqurma işləri nəticəsində son dövrlər öz görkəmini dəyişən, müasirləşən, inkişaf edən yaşayış məntəqəsinin rayonun ən gözoxşayan ərazilərindən birinə çevrildiyini diqqətə çatdırıb.

Qarşıda daha mühüm vəzifələr olduğunu bildirən natiq, rayon rəhbərliyinin qayğısı ilə bu vəzifələrin yerinə yetiriləcəyinə əminliyini bildirib.

## Nic qəsəbəsi

Nic qəsəbə inzibati ərazi nümayəndəliyində 2018-ci ildə sosial-iqtisadi sahədə görülən işlər və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat iclası keçirilmişdir.

Qəsəbə sakinlərinin, ziyalıların və ağsaqqalların iştirakı ilə keçirilən hesabat iclasında inzibati ərazi nümayəndəsi İbrahim Məmmədov ötən il yaşayış məntəqəsində sosial-iqtisadi sahədə həyata keçirilən layihələrə, aparılan abadlıq-quruculuq tədbirlərinə dair geniş məruzə etmişdir.

Məruzəçi hesabat ilində qəsəbənin abadlaşdırılması, əhalinin sosial problemlərinin həll edilməsi istiqamətində görülən işlərlə bağlı ətraflı məlumat vermiş, qarşıda duran vəzifələr barədə geniş söz açmışdır.

Hesabat iclasında qəsəbə ağsaqqalı Frans Vartanov, YAP qəsəbə ərazi ilk təşkilatının sədri Rövşən Balayev, 5 nömrəli tam orta məktəbin direktoru Venera Antonova, yerli yazar Əhməd Məmmədli, alban-xristian dini icmasının üzvü Rafik Danakari, 2 nömrəli tam orta məktəbin direktoru Valeri Martirosov və digərləri çıxış etmişlər.



Tədbirdə rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov 2018-ci ildə ölkədə, o cümlədən Qəbələ rayonunda sosial-iqtisadi sahədə həyata keçirilən layihələr barədə iclas iştirakçılarına ətraflı məlumat vermiş, Nic qəsəbə inzibati ərazi nümayəndəliyi tərəfindən görülən işləri təhlil etmişdir.

Abil Ağasəfov həmçinin sosial-iqtisadi sahədə bu il qəsəbədə görülməsi nəzərdə tutulan işlərin icrası ilə bağlı inzibati ərazi nümayənəliyinin fəaliyyətinin istiqamətləndirilməsi üçün tövsiyələrini vermişdir.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto),**
**"Qəbələ"**